2017-ci ilin yanvar-avqust aylarında muxtar respublikada nəqliyyat müəssisələri və avtomobil nəqliyyatı sahəsində fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 10361,9 min ton yük, 67729,6 min nəfər sərnişin daşınmışdır. 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 2,1 faiz, sərnişin daşınması 1,9 faiz artmışdır. Yük və sərnişin daşınmasından bütövlükdə 36545,9 min manat gəlir əldə edilmişdir ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz çoxdur.

Qeyri-dövlət sektorunda 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə yük daşınması 2,2 faiz, sərnişin daşınması 1,5 faiz, yük və sərnişin daşınmasından əldə olunan gəlir isə 2,3 faiz artmışdır.